***Aşıq Hüseyn Cavan***
***De, dağların bu çağından***

Aşıq, götür teli sazı,
De, dağların bu çağından.
Eşidilsin xoş avazın
Xaçbulağın yaylağından.

Bax, qartallı qayalara,
Bəzəkdi ulu dağlara,
Göz vururlar buludlara
Yurdumun hər bucağından.

Təbiətin budu halı,
Güneylərə sərib xalı,
Boz təpələr örtüb şalı,
Doymaq olmur növrağından.

Kəmərqaya, Etnallıdüz,
Durubdu sənnən üzbəüz,
Sızıldaşan zənburu süz,
Bal süzülür "caynağından".

Yaxlıçuxur, Gilli bulaq...
Kəpəzə çıx, Göy gölə bax,
Gəzməyinən olmaz doymaq,
Azərbaycan torpağından.

Sarıyaldan gəl qoşqara,
Hörmət eylər sənətkara.
Gözlə, düşmə boran-qara,
Çıx dağları sınağından.

Cavan Hüseyn, avazın xoş,
Zildən oxu, ürəkdən coş,
Şer də yaz, nəğmə də qoş,
Dürr süzülsün dodağından.

***Aşıq Hüseyn Cavan. De, dağların bu çağından // Azərbaycan aşıqları. – Bakı: Çaşıoğlu, 2004. – S. 350-351.***